# Vətən sevgisi, şəhidlik zirvəsi

**Vətən müharibəsi şəhidi Abdullayev Tural Şakir oğlu 1990-cı il fevral ayının 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub. Həmin il ailəsi Xocalı şəhərinə köç edib və burada yeni tikilən evlərdə məskunlaşıblar. Turalın 2 yaşı tamam olanda erməni quldurları onların yaşadığı şəhəri yerlə-yeksan etdilər, dinc əhaliyə qarşı soyqırımı törətdilər. Xocalı soyqırımında Turalın atasının xalası oğlunun da ailəsi tamamilə məhv edildi. Kiçik yaşlarından düşmənə nifrət hissi bəsləyən Tural böyüyəndə qisas almağı qarşısına məqsəd qoyub. Bir dəfə də olsun doğum gününü qeyd etməyib. Çünki onun doğum günü 613 günahsız Xocalı sakininin şəhid olduğu günə düşüb.**



Tural hərbi xidməti 2008-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sırasında keçib. 2010-cu ildən isə Zaqatalada DİN XTQ-də əməliyyat qrupunda çalışıb. 12 il Xüsusi Təyinatlı Qüvvələrdə Vətənə qüsursuz xidmət edən Tural hərbi xidmət keçdiyi zaman və çalışdığı müddətlərdə nümunəvi xidmətinə görə çoxlu sayda medal və Fəxri Fərmanlarla təltif edilib. 2008-ci ildə hərbi xidmətdə nümunəvi xidmətinə görə hərbi hissə komandirinin əmri ilə baş çavuş Abdullayev Tural Şakir oğlu 3-cü dərəcəli döş nişanı ilə təltif edilib.

2013-cü ildə "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 20 illiyi" yubiley medalı ilə, 2018-ci ilin dekabrında "Milli Ordu - 100" medalı ilə, 2020-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidentinin adından "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Tural yoldaşları arasında qorxmazlığı, vətənpərvərliyi ilə seçilib. O, uşaq yaşlarından atasına "Xocalının qisasını almaq lazımdır" deyərmiş. Üçrəngli Bayrağımızı daim özü ilə aparan Tural Vətənə olan borcu qaytarmağı həyatının amalına çevirmişdi. Vətən müharibəsi başlamamışdan əvvəl əfsanəvi "Yaşma" xüsusi təyinatlıları sırasında xüsusi təlimlərdə iştirak edib. Turalın gözlədiyi qisas vaxtı artıq yetişmişdi. "Boz qurd" ləqəbli döyüşçü qorxmadan ən təhlükəli döyüşlərə atıldı. Şərəfli döyüş yolu, şücaəti, Vətənə sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Öz canı qədər sevdiyi bayraq isə tabutuna və məzarının üzərinə sərildi. Tural ölməzliyi ilə Azərbaycan xalqının yaddaşında əbədi möhürləndi.

Şəhid atası Şakir kişi Tural haqqında xatirələrini bölüşür: "Əsgərlikdən məzuniyyətə gələndə telefonla danışdığını eşitdim. Dedi ki, " Mən məzuniyyətə gəlim, yoldaşlarım isə hərbi əməliyyatda iştirak etsinlər. Orada olsaydım, bəlkə mən də düşmən öldürərdim. Tural döyüş əməliyyatı keçirilən zaman məzuniyyətdə olduğu üçün çox təəssüf edirdi. Vətənpərvərliyi ilə seçilirdi. Zaqatalada DİN XTQ-də işləyərkən ən çətin əməliyyatlarda iştirak edirdi".

Tural Vətən müharibəsi zamanı Murovdoğ yüksəkliyinin alınmasında və Kəlbəcər istiqamətində keçirilən əməliyyatlarda iştirak etmişdir. Azərbaycan əsgəri ilə üz-üzə gəlməyə cəsarət etməyən mənfur düşmənin atdığı minaatan mərmisi nəticəsində igid əsgərimiz sentyabrın 30-u əbədiyyətə qovuşdu.

Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsində dəfn edilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamlarına əsasən baş çavuş Abdullayev Tural Şakir oğlu ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. Tural Abdullayevə məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilmişdir.




**Müşfiq MİRZƏ,
"Respublika".**